

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# Şərq qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 37 (21.447)

25 fevral 2016-cı il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsinin yaradıcılıq və istehsalat binası istifadəyə verilmişdir





Muxtar respublikada məhkumluq həyatı yaşayan insanların müxtəlif peşələr üzrə kurslara cəlbi və azadlığa buraxıldıqdan sonra öz peşələrinə uyğun işlə təmin olunması diqqət mərkəzində saxlanılır.

Fevralın 24-də Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində yeni yaradıcılıq və istehsalat binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri Suliddin Əliyev çıxış edərək demişdir ki, muxtar respublikada məhkumların hüquq və azadlıqlarının təmin olunması, saxlanma şəraitinin və gündəlik təminatının yaxşılaşdırılması, peşə vərdişlərinə yiyələnməsi üzrə ardıcıl tədbirlər həyata keçirilir. Məhkumların islah olunmasında əməyin böyük rolu vardır. Çünki peşə vərdişinə yiyələnmə məhkumun gələcəkdə cəmiyyətə uyğunlaşmasında mühüm rol oynayır. Müəssisənin istehsalat sahəsində bu günə kimi 64 məhkum kompüter istifadəçisi, misgərlik, ağac üzərində oyma və qazanxana maşinisti peşələri üzrə kurs keçmişdir. Azad edilmiş məhkumlar öyrəndikləri peşələr üzrə fəaliyyətlərini davam etdirirlər. Suliddin Əliyev yaradılan şəraitə və göstərilən diqqətə görə şəxsi heyət adından minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə çıxış edərək demişdir: Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində yaradıcılıq və istehsalat binasının istifadəyə verilməsi ölkəmizdə insan amilinə verilən qiymətin daha bir ifadəsidir. Müstəqil Azərbaycanın hər bir vətəndaşı ölkəmiz üçün qiymətlidir. Çünki ölkənin inkişafını onun vətəndaşları təmin edirlər. İxtisası və peşəsi olan vətəndaşlar isə ölkəsi və xalqı üçün daha faydalı olur. Bu gün Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində istifadəyə verilən yaradıcılıq və istehsalat binasında da müxtəlif səbəblərdən məhkumluq həyatı yaşayan vətəndaşlarımıza peşələr öyrədiləcəkdir.

Ali Məclisin Sədri demişdir: Məhkumluq həyatı yaşayan və peşəsi olmayan vətəndaşlar məhkumluq müddəti başa çatdıqdan sonra cəmiyyətə qayıdırlar. Müəyyən səbəblərə görə məhkumluq həyatı yaşayan bu insanların sonradan peşə öyrənmələrində müəyyən çətinliklər yaranır. Ona görə də yaradıcılıq və istehsalat sahəsində məhkumlara 10 ixtisas üzrə peşələr öyrədiləcək və onlar cəmiyyətə sənəti, peşəsi olan vətəndaş kimi qayıdacaqlar. Burada açılan ixtisaslar muxtar respublika üçün tələbat olan sahələrdir. Belə ki, muxtar respublikanın müəssisə və təşkilatlarında 500-dən artıq qazanxana fəaliyyət göstərir. Həmçinin kənd yaşayış məntəqələrində istifadəyə verilən xidmət mərkəzlərində bərbərxana, gözəllik salonları, dərzi otaqları istifadəyə verilmiş, yeni iş yerləri açılmışdır. Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsinin yaradıcılıq və istehsalat sahəsində müxtəlif peşələri öyrənən məhkumların bir hissəsi gələcəkdə məhkumluq müddəti başa çatdıqdan sonra bu sahələrdə işlə təmin olunacaqlar.

Qeyd olunmuşdur ki, 2012-ci ildən etibarən Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində istehsalat sahəsi yaradılmış, bəzi ixtisaslar üzrə peşələrin öyrədilməsinə başlanılmışdır. İstehsalat sahəsində hazırlanan əl işlərinin muxtar respublikada keçirilən müxtəlif sərgilərdə nümayişi və satışı təşkil olunmuşdur. Hazırda Naxçıvan şəhərində məhkumların əl işlərinin satışı mağazası fəaliyyət göstərir. Həyata keçirilən bu tədbirlər məhkumlara peşə öyrədilməsi ilə yanaşı, həm də onların ailə büdcələrinə kömək edəcək, vaxtları səmərəli keçəcəkdir.

Ali Məclisin Sədri demişdir: Məhkumlara peşə öyrədilməsi və onların cəmiyyətə sağlam vətəndaş kimi qaytarılması qarşıda duran əsas vəzifədir. Ona görə də məhkumluq həyatı yaşayan vətəndaşlarımıza qayğı ilə yanaşılmalı, onların yenidən həyata hazırlanmaları üçün lazımi tədbirlər görülməlidir. Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində məhkumlara peşə öyrədilməsi ilə yanaşı, həm də oxu günləri və digər mədəni-kütləvi tədbirlər keçirilməlidir. Məhkumlar cəmiyyətdən təcrid olunmamalı, azad olunduqdan sonra ölkəsi və ailəsi üçün yararlı vətəndaşa çevrilməlidirlər.

Ali Məclisin Sədri qarşıya qoyulan vəzifələrin icrasında kollektivə uğurlar arzulamış və binada yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, iki mərtəbədən ibarət olan binada istehsalat və tədris otaqları, yeməkxana və nəzarətçi otağı vardır. Burada istehsalat prosesi ilə yanaşı, kompüter istifadəçisi, nəqqaşlıq və misgərlik, ağac, daş və duz üzərində oyma, dərzi, rəssam, ayaqqabı təmiri və bərbər peşələri üzrə kurslar da təşkil olunacaqdır. Bunun üçün tədris otaqları təyinatına uyğun avadanlıqlarla təmin olunmuş, kompüter otağında 8 kompüter dəsti quraşdırılmış, 29 məhkumun eyni vaxtda müxtəlif peşə fəaliyyəti ilə məşğul olması üçün şərait yaradılmışdır. Həmçinin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində məhkumların əl işlərindən ibarət mağaza da fəaliyyət göstərir.

Ali Məclisin Sədri Naxçıvan şəhərində və rayon mərkəzlərində məhkumların əl işlərindən ibarət sərgi-satışların təşkili, müəssisədə toxuculuq peşəsi üzrə kursun açılması və burada keçirilən kursların müvafiq təşkilatlara hamiliyə verilməsi barədə tapşırıqlar vermiş, məhkumlara müvafiq peşələrin öyrədilməsində muxtar respublikada fəaliyyət göstərən sənətkarların iştirakının vacibliyini vurğulamışdır.

Sonra Ali Məclisin Sədri Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində məhkumların yaşayışı, qidalanması və onlara göstərilən tibbi xidmətlə maraqlanmış, müvafiq tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## "Naxçıvan Taxıl Məmulatları Sənaye Kompleksi" MMC-də yarma istehsalı sahəsi fəaliyyətə başlamışdır



Naxçıvan Muxtar Respublikasında əhalinin tələbatının yerli istehsal hesabına ödənilməsi, idxaldan asılılığın azaldılması, yerli resurslardan səmərəli istifadənin təmin edilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.

Fevralın 24-də "Naxçıvan Taxıl Məmulatları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən yaradılan yarma istehsalı sahəsi fəaliyyətə başlamışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müavini Mirhəşim Seyidov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Famil Seyidov məlumat vermişdir ki, istehsal sahəsi Sahibkarlığa Kömək Fondundan ayrılan vəsait və müəssisənin daxili imkanları hesabına yaradılmışdır. İstehsal sahəsində quraşdırılan müasir avadanlıqlar vasitəsilə yüksəkkeyfiyyətli məhsul istehsalına nail olmaq mümkündür. 576 kvadratmetr sahəyə malik olan müəssisədə 3 çeşiddə – 800 qram və 3 kiloqramlıq polietilen paketdə, 25 kiloqramlıq kisədə yarma istehsal olunur. Müəssisənin illik istehsal gücü 1500 tondur. Bu da daxili tələbatı tam ödəyəcəkdir. İndiyə kimi bu məhsula olan tələbat idxal hesabına ödənilirdi. Gələcəkdə məhsulun xarici bazara çıxarılması da nəzərdə tutulur. Müəssisədə 10 yeni iş yeri açılmışdır.

**"Şərq qapısı"**

## Sığorta fəaliyyəti genişləndirilir

*Muxtar respublikamızda sığorta fəaliyyətinin təkmilləşdirilməsi və müasir tələblərə uyğun şəkildə qurulması işində yaranmış canlanma və inkişaf tendensiyası cari ilin ilk ayında da müşahidə olunmuşdur.*

Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyindən aldığımız məlumata görə, cari ilin yanvar ayı üzrə ötən ilin müvafiq dövrü ilə müqayisədə sığorta haqlarının toplanmasında 5,4 faiz artım olmuşdur. Belə ki, yanvar ayı ərzində, ümumilikdə, sığorta növləri üzrə müqavilələrin sayında 395 ədəd artım olmuşdur ki, bunun da 274 ədədi daşınmaz əmlakın icbari sığortası növü üzrə bağlanılmışdır. Yanvar ayında daşınmaz əmlakın icbari sığortası üzrə, həmçinin avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası sahəsində və bir sıra könüllü sığortalar üzrə də ötən ilin müvafiq dövrü ilə müqayisədə artım müşahidə olunmuşdur.

**Xəbərlər şöbəsi**

## Gənc əməkdaşlar gömrük andı içiblər

***Muxtar respublika gömrük orqanları sıralarına yeni qəbul olunmuş gənc əməkdaşların andiçmə mərasimi keçirilib.***

Gömrük andını sınaq müddəti bitmiş və ilk xüsusi rütbələr verilmiş 30 gömrükçü qəbul edib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Asəf Məmmədov and içən gömrükçüləri təbrik edərək onlara işlərində uğurlar arzulayıb. Bildirilib ki, əsl gömrükçü olmaq üçün onlar bu peşənin sirlərinə dərindən yiyələnməli, işdə məsuliyyətli olmalı, qanunvericiliyin tələblərinə riayət etməli, qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsində mütəşəkkillik göstərməlidirlər.

Vurğulanıb ki, hər bir gömrükçü dünya təcrübəsinin öyrənilməsi və müsbət ənənələrin tətbiqi üçün təkliflərlə çıxış etməli, muxtar respublikada gömrük işini daha da irəli aparmaq üçün vicdanla çalışmalı, öz sahəsini mükəmməl öyrənməklə yanaşı, elmi biliklərini daim artırmalı, ulu öndər Heydər Əliyevin ideyaları, Azərbaycançılıq məfkurəsi ətrafında sıx birləşməlidir.

Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Andiçmə mərasimi gömrükçülərin təntənə ilə oxuduqları "Gömrükçü marşı" ilə başa çatıb.

# Qan yaddaşımız





## Qaradağlı və Xocalı soyqırımları

***Ermənilər müntəzəm olaraq soyqırımına məruz qaldıqlarını iddia etməkdə və hər il aprel ayının 24-də bu məsələni bütün dünya ölkələrinin, xüsusilə də böyük dövlətlərin parlamentlərinin gündəminə gətirməkdədirlər. Burada diqqətçəkən əsas məqam ondan ibarətdir ki, ermənilər 1915-ci il hadisələrində ölən insanların sayını mübaliğəli olaraq 1,5 milyon nəfər göstərirlər. Halbuki o vaxt Osmanlı imperiyasının sərhədləri daxilində bu qədər erməni yaşamırdı.***

Tanınmış türk tarixçisi Kamuran Gürün qeyd edir ki, ermənilər tərəfindən göstərilən ölü sayı 1915-ci ildə 300 mindən başlamış, 1980-ci illərdə 2 milyona çatdırılmışdır. İllər keçdikcə bir millətin əhalisinin artması normal bir hadisədir, lakin müəyyən bir tarixdə ölmüş insanların zaman keçdikcə sayının artması çox qəribə bir icaddır.

Tarixi faktlar sübut edir ki, ermənilər soyqırımına məruz qalmamış, əksinə, onlar soyqırımı törətmişlər. XX əsrin əvvəllərində olduğu kimi, sonlarında da törədilən cinayətlərin pərdəarxası məqamlarını "böyük Ermənistan" ideologiyasında və onun tərkib hissəsi olan hai-taht doktrinasında axtarmaq lazımdır. Erməni daşnaklarının milli psixologiyasına görə, əgər terrordan daha şiddətli bir metod olsa, ermənilər ona da baş vurmalıdırlar. Bu vəziyyət ermənilər arasındakı nifrətin və terroru qidalandıran ana damarın nə qədər güclü bir məqama çatdığını ortaya qoyur. Məhz həmin psixologiyanın təsiridir ki, ermənilər Azərbaycanın ayrılmaz parçası olan Dağlıq Qarabağı və ətraf rayonları işğal etmiş, Azərbaycan türklərinə qarşı Qaradağlı, Xocalı faciələri kimi qanlı cinayətlər törətmişlər. Bu cinayətlər XX əsrdə mülki əhaliyə qarşı törədilən terrorizmin ən dəhşətli nümunələrindəndir.

Qaradağlı cinayəti 1992-ci il fevralın 17-də Xocavənd rayonunun Qaradağlı kəndində Ermənistan silahlı qüvvələri və Rusiyanın 366-cı alayı tərəfindən törədilən soyqırımıdır. Bu kəndin sakinlərindən 104 nəfəri girov götürüldükdən sonra qoca və cavanlar ayrı-ayrı maşınlara doldurularaq yolboyu kəndlərdə düşürülmüş və onları ən qəddar üsullarla qətlə yetirmişlər. Beləliklə, ermənilər girov götürülənlərdən 67 nəfəri öldürdükdən sonra qazdıqları quyuya doldurmuşlar. Öldürülənlərdən 10-u qadın, 8-i uşaq idi. İki ailənin hər birindən 4 nəfər şəhid olmuş, 42 ailə öz başçısını itirmiş, 140-a yaxın uşaq yetim qalmışdır. İşğal nəticəsində kənddə 200 ev, 1 mədəniyyət evi, 320 şagird yerlik orta məktəb binası, 25 çarpayılıq xəstəxana binası və digər obyektlər dağıdılmış, kəndin 800 nəfərə yaxın sakini məcburi köçkünə çevrilmişdir.

Beləliklə, fevral ayının 17-də Qaradağlı soyqırımının törədilməsi ilə Xocalıya gedən yol tamamilə açılmışdır. Qaradağlı soyqırımı ilə kifayətlənməyən ermənilər Xocalıda daha amansız hərəkətlərə imza atmışlar. Bu faciə zamanı törədilən vəhşilikləri sözlə təsvir etmək mümkün deyil. Ailələrin bütövlükdə məhv edilməsi, insanların diri-diri yandırılması, öldürülən azərbaycanlıların cəsədlərinin təhqir olunması – ümumiyyətlə, belə faktlar erməni vandalizminin əlamətləridir.

Xocalı soyqırımının törədilməsində birbaşa məsuliyyət daşıyan ozamankı səhra komandiri, Ermənistanın indiki prezidenti Serj Sarkisyan Böyük Britaniyanın Beynəlxalq Münasibətlər İnstitutunda çıxışı zamanı "biz ermənilər soyqırımına uğramış xalq kimi bəşəriyyət və tarix qarşısında soyqırımlarının qabağını almaq məqsədilə mənəvi məsuliyyət daşıyırıq" demiş və sanki dünya ictimaiyyətini məsxərəyə qoymuşdur. Burada olduqca məkrli bir strateji xətt var. Serj Sarkisyan ənənəvi siyasət kimi bu mötəbər məclisdə guya soyqırımına uğramış millət olaraq ermənilərin məzlum "qurban" obrazını təbliğ etmişdir. Bu obrazla ermənilər hər vəchlə real faktları gizlətməyə çalışmışlar. Təsadüfi deyildir ki, Xocalıda törədilmiş cinayətləri ermənilər inkar edir, hətta həmin soyqırımında ölənlərin azərbaycanlılar deyil, ermənilərin olduğunu önə çəkməklə azərbaycanlıları ittiham edirlər.

Əldə olan faktlar onu deməyə imkan verir ki, Azərbaycan tarixinin ən ağrılı və acılı səhifələrindən olan Qaradağlı və Xocalı faciələri mübahisəsiz bir soyqırımıdır. Günümüzdə hər hansı bir faciənin soyqırımı olaraq tanınması üçün saylara diqqət çəkilir. Əgər minlərlə insan məhv edilərsə, bu, soyqırımı olaraq xarakterizə edilir. Belə bir vəziyyət bir gecədə 613 insanın qətlə yetirildiyi Xocalı faciəsinin soyqırımı kimi tanınmasına yönəlik şübhə oyatmamalıdır. Çünki 9 dekabr 1948-ci ildə BMT tərəfindən qəbul edilən "Soyqırımı Cinayətinin Qarşısının Alınması və Cəzalandırılması Sözləşməsi"ndəki tərifdə müəyyənedici ünsür say deyil, millət, din, soy, ya da irq kimi xüsusiyyətlər üzərində qurulan bir qrupun sistematik və məqsədli olaraq tamamilə, ya da qismən məhv edilməsi planıdır. Ermənilərin Xocalıda törətdikləri cinayətlər BMT tərəfindən qəbul edilən bu sözləşmənin ikinci maddəsi ilə uyğunluq təşkil edir. Bu maddənin bəndlərində göstərilir:

*1. Əlaqədar qrup üzvlərinin (milli, etnik və dini olaraq) öldürülməsi*

*2. Əlaqədar qrup üzvlərinin ruhi və fiziki səhhətlərinə zərər verilməsi*

*3. Əlaqədar qrup üzvlərinin fiziki varlıqlarının ortadan qaldırılması.*

Məhz bu baxımdan ermənilərin Xocalıda törətdikləri vəhşiliklər insanların (qrupun) planlı və sistematik olaraq məhv edilməsinə yönəlik məqsəd və cinayətlərin təzahürləridir. Ermənistan BMT-nin "Soyqırımı Cinayətinin Qarşısının Alınması və Cəzalandırılması Sözləşməsi"ni imzaladığı üçün bu nizamnamə qarşısında məsuliyyət daşıyır. Bu səbəblə Xocalı faciəsinin soyqırımı olaraq tanınması üçün BMT-yə, beynəlxalq məhkəməyə hər dəfə müraciət olunmalı və bu müraciətdə tutarlı sübutlar çərçivəsində soyqırımını gerçəkləşdirən bütün siyasətçilərin, hərbçilərin və iştirak edən digər məsul şəxslərin adları açıq şəkildə göstərilməli, onların cəzalandırılması tələb edilməlidir. BMT-nin soyqırımı sözləşməsinin 3-cü və 4-cü maddələrinə uyğun olaraq soyqırımına rəvac verən hərəkətlərdən birini belə həyata keçirən, gerçəkləşdirilməsi üçün razılığa gələn, ictimaiyyətə yönəlik bu cür hərəkət və fəaliyyətləri qızışdıran, təşviq edən, eyni zamanda bu fəaliyyətləri əvvəlcədən planlaşdıran və hədəfləyən, istər icraçı, istərsə də rəsmi və ya qeyri-rəsmi şəxs olaraq cinayətlərdə iştirakı təsdiqlənən hər kəsin cəzalandırılması vacibdir.

Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılması istiqamətində Azərbaycanda son illərdə çox işlər görülüb. Bu istiqamətdə görülən işlər davam etdirilir. Ermənilərin "quzu cildinə girmiş canavar" obrazını ifşa etmək üçün üzərimizə böyük məsuliyyət düşür. Azərbaycanın erməni saxtakarlığı və cinayətləri ilə bağlı qarşılaşdığı problemlər açıqca ortaya qoymuşdur ki, yeni strategiyaların müəyyən edilməsi və gücləndirilməsi qaçılmazdır. Bu mübarizədə uğurlar əldə etməyin başlıca yolu isə psixoloji müharibəyə daha yaxşı hazırlaşmaq və bunu qarşı tərəfə qəbul etdirə bilməkdir.

**Emin ŞIXƏLİYEV**
***tarix üzrə fəlsəfə doktoru***

## Xocalı soyqırımı qurbanlarının xatirəsi anılıb

***Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində keçirilən konfransda ilk olaraq Xocalıda və Azərbaycanın ərazi bütövlüyünün qorunması uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***



Konfransı giriş sözü ilə bölmənin sədri, akademik İsmayıl Hacıyev açıb. O bildirib ki, Xocalı faciəsi XX əsrin ən qanlı faciələrindən biridir və bu, bir millətə qarşı törədilmiş soyqırımıdır. Bu cinayətin arxasında ermənilərin azərbaycanlılara qarşı əsrlər boyu apardığı amansız siyasət planı dayanır. Bəşər tarixinin ən qanlı səhifələrindən biri olan Xocalı faciəsi məhz həmin siyasətin növbəti təzahürü idi.

Konfransda AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun elmi katibi, tarix üzrə fəlsəfə doktoru Yaşar Rəhimov "Xocalı faciəsinə gedən yol", institutun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent İlhami Əliyev "Xocalı faciəsi ermənilərin azərbaycanlılara qarşı yeritdiyi soyqırımı siyasətinin tərkib hissəsi kimi", institutun böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Zeynəb Quliyeva "Xocalı qəhrəmanları", İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun elmi katibi, filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımov "Xocalı faciəsinin Azərbaycan ədəbiyyatında əksi" mövzularında məruzələrlə çıxış ediblər.

Vurğulanıb ki, zaman-zaman ermənilər tərəfindən gah gizli, gah da açıq şəkildə davam etdirilən bu siyasət insanlığa sığmayan faciə ilə nəticələnib, soyqırımı kimi tarixə düşüb. Bu faciə dünyada baş verən ən böyük faciələrlə müqayisə edilir.

Bildirilib ki, Xocalı soyqırımı Azərbaycan xalqının tarixinə qəhrəmanlıq səhifəsi kimi yazılıb. Bu səhifə illər keçdikcə gəncliyə çatdırılmalı, hər bir azərbaycanlı öz tarixini dərindən bilməli, dostu ilə düşmənini yaxından tanımalıdır. Bu mövzuda fundamental əsərlər yazılmalıdır.

* * *



***Naxçıvan Dövlət Universitetində də Xocalı soyqırımının 24-cü ildönümünə həsr olunmuş konfrans keçirilib.***

Əvvəlcə Azərbaycanın müstəqilliyi uğrunda canlarını fəda edən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransda çıxış edən universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov bildirib ki, Xocalı faciəsi bəşər tarixində misligörünməmiş ən dəhşətli faciədir. Rektor vurğulayıb ki, Xocalı soyqırımına hüquqi-siyasi qiymət verilməsi, faciə barədə həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. 1994-cü il fevralın 24-də ümummilli liderin təşəbbüsü ilə Milli Məclis "Xocalı soyqırımı günü haqqında" qərar qəbul edib və beynəlxalq ictimaiyyəti erməni terrorizminə qarşı təsirli tədbirlər görməyə çağırıb.

Saleh Məhərrəmov bildirib ki, bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi xarici siyasət nəticəsində artıq dünya birliyi Ermənistan silahlı qüvvələrinin Xocalıda törətdiyi soyqırımı barədə məlumatlıdır.

Konfransda universitetin Beynəlxalq münasibətlər və xarici dillər fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru, dosent Qurban Qurbanlının "Xocalı faciəsi beynəlxalq aləmin gözündə" adlı məruzəsi dinlənilib. Natiq ermənilərin əsrlər boyu xalqımıza qarşı apardıqları düşmənçilik siyasətinin bariz nümunəsi olan bu kütləvi qırğının təkcə Azərbaycan xalqına deyil, bütövlükdə bəşəriyyətə və insanlığa qarşı törədilmiş ağır cinayət olduğunu vurğulayıb. Qeyd olunub ki, gələcək nəsillər bu faciəni unutmamalı, vətənpərvərlik və milli həmrəylik nümayiş etdirməlidirlər.

Konfransda Xocalı soyqırımının dəhşətlərini əks etdirən fotolardan ibarət slayd nümayiş olunub.

* * *

Xocalı soyqırımı XX əsrin ən qanlı hadisələrindən biridir. Bu hadisə mənfur erməni daşnaklarının Azərbaycan xalqına qarşı həyata keçirdiyi soyqırımı siyasətinin növbəti mərhələsi kimi tariximizə yazılıb. Əfsuslar olsun ki, odövrkü rəhbərlik xalqımızın başına gətirilən bu bəlanın qarşısını almadı. Lakin ümummilli liderimiz Heydər Əliyev bu faciənin siyasi-hüquqi qiymət almasına nail oldu. Bu cinayətin beynəlxalq müstəvidə tanıdılması və erməni faşizminin ifşası ilə əlaqədar ilk təşəbbüs də ulu öndərin adı ilə bağlıdır. Onun təşəbbüsü nəticəsində Azərbaycan Respublikasının Milli Məclisində qəbul edilən müvafiq qərardan sonra 26 fevral Xocalı Soyqırımı Günü kimi qeyd olunur.



Bu fikirləri "Naxçıvan" Universitetində keçirilən konfransda ali təhsil ocağının rektoru, professor İsmayıl Əliyev səsləndirib.

Sonra universitetin Ümumi tarix kafedrasının dosenti Elçin Zamanovun "XX əsrin ən ağır faciəsi –Xocalı", Ərzurum Atatürk Universitetinin professoru Kerem Karabulutun "Tarixdə türk-erməni münasibətləri və Xocalı soyqırımı", Azərbaycan dili və ədəbiyyat kafedrasının müəllimi Nurlana Əliyevanın "Xocalı soyqırımı Azərbaycan ədəbiyyatında", universitetin tələbəsi Könül Cəfərsoyun "Xocalı soyqırımı beynəlxalq müstəvidə" mövzularında çıxışları dinlənilib. Çıxışlarda ulu öndər Heydər Əliyevin Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində göstərdiyi səylərdən, apardığı məqsədyönlü siyasətdən söz açılıb, bu siyasətin bu gün ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirildiyi ifadə olunub.

Sonda tələbələrin ifasında Xocalıya həsr edilmiş şeirlər səsləndirilib, "Bəşəriyyətin ən ağır faciəsi – Xocalı" adlı vi-

* * *



***Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasında da Xocalı soyqırımı ilə əlaqədar tədbir keçirilib.***

Şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunduqdan sonra tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Sucaxan Novruzov açıb. Qeyd olunub ki, 1992-ci ilin fevral ayının 26-da Xocalıda baş verən soyqırımı hadisəsi Azərbaycan tarixinə ən dəhşətli və qanlı səhifələrdən biri kimi daxil olub. O zaman erməni quldurları tərəfindən Xocalıda xalqımıza qarşı törədilən soyqırımı barədə dünya ictimaiyyətinə məlumat verilməyib, faciənin əsl mahiyyətinə aydınlıq gətirilməyib. Lakin ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Xocalı soyqırımına siyasi-hüquqi qiymət verilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yürütdüyü siyasət nəticəsində artıq bir neçə ildir ki, faciə qurbanlarının xatirəsi dünyanın onlarla ölkəsində yad edilir. Bu kütləvi və amansız qırğın aktı erməni qəsbkarlarının Azərbaycanın dövlət müstəqilliyini, ərazi bütövlüyünü hədəfə almış işğalçı siyasətinin növbəti qanlı səhifəsi olmaqla bütün insanlığa qarşı cinayətdir və bəşər tarixində qara ləkə kimi qalacaqdır.

Tədbirdə şuranın əməkdaşlarından Xatirə İbrahimlinin, Səbuhi Hüseynovun, Ceyhun Məmmədovun, Yəmən Rzayevanın çıxışları olub.

**Xəbərlər şöbəsi**

***Yerli əhali və turistlər çox vaxt buranı “mirvari şəhər” adlandırırlar. Yaşıl palmaları, maraqlı heykəlləri, müxtəlif memarlıq tərzinə malik tarixi və müasir tikililəri ilə diqqətçəkən bu liman şəhəri həm də Qafqazın turizm mərkəzi kimi tanınır. Bu şəhər ötən əsrin əvvəllərində Zaqafqaziyada baş verən hadisələrlə bağlı aparılan müzakirələrə, mühüm qərarların verildiyi konfrans və toplantılara, imzalanan tarixi müqavilələrə şahidlik edib. Sovetlər Birliyi dövründə müəyyən inkişaf dövrü keçsə də, əsl əhəmiyyətini və inkişafını ölkəsinin müstəqillik əldə etməsindən sonra göstərə bilib. Hazırda isə həm yerləşdiyi strateji bölgəyə, həm də müasir inkişafına görə qonşu Gürcüstan Respublikasının, eləcə də Cənubi Qafqazın sayılıb-seçilən şəhərlərindən birinə çevrilib. Söhbət Qara dəniz sahilində yerləşən Batumi şəhərindən gedir.***

# Naxçıvanla Acarıstan arasında qarşılıqlı əlaqələr genişlənir

## *Batumidə Naxçıvana gəlmək istəyənlər az deyil*

*(Reportaj)*

Acarıstan Muxtar Respublikasının paytaxtı Batumi şəhəri Naxçıvandan 620 kilometrlik bir məsafədə yerləşir. İki dost ölkənin eyni statusa malik regionları arasında əlaqələr 2012-ci ildə daha da genişləndirilib. Həmin ilin yanvar və iyun aylarında hər iki tərəfdən rəsmi nümayəndə heyətlərinin qarşılıqlı səfərləri olub, “Azərbaycan Respublikasının Naxçıvan və Gürcüstanın Batumi şəhərləri arasında Qardaşlıq və Əməkdaşlığa dair Memorandum” imzalanıb. Hər iki tərəfin səyləri nəticəsində əlaqələr ilbəil genişlənir. Bu günlərdə isə Naxçıvan-Batumi-Naxçıvan avtobus marşrutunun fəaliyyətə başlaması əlaqələrin müxtəlif istiqamətlərdə inkişaf etdirilməsi üçün əsaslı zəmin yaradır. Bu marşrut xəttinin ilk sərnişini olduq və bu qısa səfərlə bağlı aldığımız təəssüratları oxucularımızla bölüşmək istəyirik.



Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin balansında olan yeni “MAN Neoplan” markalı avtobusla səhər saat 8-də Naxçıvan şəhər avtovağzalından yola çıxdıq və axşam saatlarında Batumiyə çatdıq. Şəhər mərkəzində bizi Acarıstan Muxtar Respublikası Ali Sovetinin, Batumi Turizm Departamentinin, Azərbaycan Respublikasının Batumi şəhərindəki Baş Konsulluğunun, eləcə də yerli kütləvi informasiya vasitələrinin nümayəndələri qarşıladılar. Qısa tanışlıq və qarşılanmadan sonra qalacağımız otelə yerləşdik və səhəri gün dəniz sahilindəki bu şəhəri gəzməyə başladıq. Şəhərlə tanışlıq üçün cəmi bir gün vaxtımız vardı. İstirahət gününə təsadüf etdiyindən və vaxtımız qısa olduğundan əvvəldən planlaşdırdığımız bir çox ünvanlarda ola bilməsək də, hər halda Acarıstanın paytaxtı haqqında bizdə müəyyən təəssüratlar yarandı.

Batumi istər havası, istərsə də gözəlliyi ilə seçilir. Bir zamanlar Antik yunan koloniyası olan Batumi orta əsrlərə qədər gürcü knyazlıqlarının, 1564-cü ildən Osmanlı dövlətinin, 1877-1878-ci illər rus-türk müharibəsindən sonra isə Rusiyanın idarəçiliyində olub. 16 mart 1921-ci ildə imzalanan Moskva müqaviləsinin şərtlərinə əsasən, əhalisi müsəlman acarlardan ibarət olan bölgəyə muxtariyyət statusunun verilməsindən sonra şəhər Gürcüstanın tərkibinə qatılıb. Batumi yeni qurulan Acarıstan Muxtar Respublikasının paytaxtına çevrilib. Şəhər müasir və köhnə Batumi adı ilə ikiyə ayrılır. Köhnə Batumidə tarixi binalar, daş döşəməli ensiz küçələr daha çox diqqəti cəlb edir. Buradakı binaların əksəriyyəti XIX əsrə aiddir. Şəhərin görməli yerləri arasında Orta Məscid, Acarıstan Dövlət Muzeyi, Batumi Botanika bağı, İsa Məsihin 12 həvarilərindən (apostollarından) biri olan Müqəddəs Matveyin abidə məzarının yerləşdiyi və Roma dövründən qalma Apsaros qalası, Qara dəniz sahilindəki Batumi Dövlət Parkı, Roma Kolizeyinin modeli və digərlərini misal göstərmək olar.

Müasir Batuminin inkişafı isə əsasən, Gürcüstanın müstəqillik əldə etməsindən sonra başlayıb. Belə ki, şəhərin bu hissəsində qısa müddətdə ilk göydələnlər inşa olunub, bir-birinin ardınca müasir otellər istifadəyə verilib. Bununla yanaşı, Batumidə hər kəsin büdcəsinə uyğun kiçik otellər də yaradılıb ki, ümumi otellərin sayı hazırda 220-dən çoxdur. Şəhər infrastrukturu baxımından Batumi özünün yeni inkişaf mərhələsini yaşayır. Avropa şəhərlərinin əksəriyyətində olduğu kimi, burada da velosiped sürücüləri üçün xüsusi yollar ayrılıb. Belə yolları həm şəhərin bütün küçələrində, həm də sahil boyunca görmək mümkündür.

Sahildən söz düşmüşkən qeyd edək ki, bura Batumiyə yolu düşən insanların əsl istirahət yerlərindəndir. Bura ilə tanışlığımız zamanı o qədər insan gözə dəyməsə də, yerli sakinlər turistlərin, əsasən, aprel-may aylarından sonra gələcəyini bildirdilər. Səhər saatlarında burada özlərinin sevimli məşğuliyyətlərinə başı qarışmış balıq həvəskarlarını görürük. Sahil boyunca rast gəldiyimiz bu həvəskarlar həm istirahət edir, həm də təmiz dəniz havası udurlar. Yenicə tanış olduğumuz Vaxtanq Beridze şəhərdəki orta məktəblərin birində müəllim işləyir. Hər şənbə və bazar günləri bura gəldiyini söyləyir. Bu gün isə gəldiyi saat yarım vaxt ərzində cəmi iki balıq tuta bilib. Deyir ki, əslində, tutduğu bu balıqları bazardan da ala bilər. Ancaq balıq tutmaq onun sevimli məşğuliyyəti olduğundan bu “əziyyəti” özü çəkmək istəyir. Bir az söhbət etdikdən sonra ondan Naxçıvanı tanıyıb-tanımadığını soruşuruq. “Əlbəttə tanıyıram” – elə bu tərzdə də cavab verir. Görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvanda doğulduğunu, Azərbaycan və Gürcüstan əlaqələrinin inkişafında gördüyü işləri xatırladır. Ona hər iki muxtar respublikanın paytaxt şəhərləri arasında yeni avtobus marşrutunun fəaliyyətə başladığını xəbər veririk. Bu xəbərə sevinir. İmkan olan kimi Naxçıvana gələcəyini deyir. Ondan ayrılaraq dənizkənarı gəzintimizi davam etdiririk. Sahilboyu lövbər salmış müxtəlif paroxodlar, kiçik qayıqlar nəzərimizdən qaçmır. “Tamara-1”, “Tamara-2”, “Çernomorets”, “Batumi” və adını çəkmədiyimiz bir çox paroxodların hər birinin öz funksiyası var. Bəziləri dəniz gəzintisi, bəziləri sahilə yan alan su nəqliyyatı vasitələrini buxovlamaq, bəziləri isə texniki məqsədlər üçün istifadə olunur. Onlardan birinin kapitan köməkçisi ilə söhbətimiz deyəsən, alınır. Amian Devadze adlı bu şəxs 30 ildən çoxdur ki, Batumi limanındakı mülki sahil mühafizə xidmətində işləyir. Hazırda çalışdığı paroxod isə dənizdəki təmizliyə cavabdehdir. Belə ki, paroxod hər gün limanda sahilboyu ərazilərdəki sularda üzərək su üzərindəki tullantıları toplayır. Sonra isə həmin tullantılar paroxodun təmizlik qutularına yığılaraq sahildə bunun üçün müəyyən olunmuş avtomaşınlarla lazımi yerlərə daşınır. Buna görə də Batumi limanında dəniz çox təmiz saxlanılır. Amian Devadze dənizin ən çox turistlər gələn zamanda çirkləndirildiyini bildirsə də, işlərinin öhdəsindən layiqincə gəldiklərini deyir. Müsahibimiz bildirir ki, kapitan köməkçisi olduğu bu paroxod 1989-cu ildə Bakıdakı gəmi təmiri zavodunda yığılıb və həmin ildən də Batumi limanında xidmət göstərir. Kapitan köməkçisi turist olduğumuzu düşünüb Batumiyə niyə məhz indi gəldiyimizi soruşur. Biz isə yeni açılmış Naxçıvan-Batumi-Naxçıvan avtobus reysinin ilk sərnişinlərindən olduğumuzu söyləyirik. Müsahibimiz buna sevindiyini bildirir, naxçıvanlı turistləri gözlədiyini dilə gətirir. Eyni zamanda Batumidən də Naxçıvana getmək istəyənlərin sayının artacağını deyir. Bildirir ki, yaxın dostu Gürcüstan Elmlər Akademiyasında çalışır və Azərbaycana son səfərlərinin birində iki gün Naxçıvanda qalıb. Naxçıvanın tarixi, mədəniyyəti, məişəti ilə bağlı əyani tanış olub və bu haqda həmişə ağızdolusu danışır ki, Naxçıvan həm də çox təmiz şəhərdir.



Batumi bulvarında ən çox diqqəti çəkən isə “Əli və Nino” abidəsidir. Abidənin müəllifi Tamar Kvesitadze azərbaycanlı yazıçı Qurban Səidin “Əli və Nino” romanından ilham alaraq bu əsəri yaradıb. Abidə hərəkət edən iki insan heykəlindən ibarətdir. Müəllif bu əsəri yaradarkən azərbaycanlı gənclə gürcü qızının sevgisinə abidə ucaltmaq istədiyini bildirib. Bir-birindən aralı metal konstruksiyalı kişi və qadın heykəli hər gün səhər saatlarında hərəkətə başlayır və spiralvarı quruluşları sayəsində hər 8-10 dəqiqədən bir “qovuşur”. Azərbaycanla bağlı digər maraqlı məqam isə Batumidə dəniz sahili ilə uzanan yolun “Baku street” adlanmasıdır.

Digər maraqlı tikili isə yenə də Batumi bulvarında tikilmiş Əlifba qülləsidir. 2012-ci ildə tikilən 130 metr hündürlüyündəki bu qülləni maraqlı edən isə üzərində gürcü əlifbasının hərflərinin əks olunmasıdır. Gözəl memarlıq quruluşuna malik qüllənin ən üst hissəsi turistlərin şəhəri izləyə bilməsi üçün restoran olaraq planlaşdırılıb. Qülləni ilk gördüyümüz gün Beynəlxalq Ana Dili Gününə təsadüf edirdi. Bəlkə də bu təsadüfdəndir ki, gürcülərin öz ana dilinə və bu dilin sütunu sayılan gürcü əlifbasına olan sevgilərini əyani olaraq bir daha gördüm.

Batumi gözəl olmaqla yanaşı, həm də təmiz şəhərdir. Təkcə dənizkənarı deyil, şəhərin digər küçələrində də bu cür təmizliyi müşahidə etmək mümkündür. Yaşıl palma və bambuk ağacları, subtropik iqlimə uyğun gül-çiçəkləri isə şəhərin əksər yerlərində görmək olar.

Qeyd etdiyimiz kimi, Batumi bir turizm şəhəridir. Təbii ki, bu təkcə şəhərin dəniz kənarında yerləşməsi ilə deyil, eyni zamanda xarici investisiyalar üçün açıq bir bölgə olmasından da irəli gəlir. Məsələn, şəhərdə olarkən xeyli sayda xarici şirkətlərin burada turizmin müxtəlif sahələrinə böyük yatırımlar qoyduqlarının şahidi olduq. Tikilməkdə olan otellər, biznes və ticarət mərkəzləri, restoranlar, müxtəlif markaları təmsil edən butik mağazalar Batuminin biznes ruhundan xəbər verir. Özəl sektorun inkişafı üçün yaradılmış əlverişli şərait burada sağlam rəqabətin formalaşmasında öz sözünü deyir. Məsələn, sifarişlə bizi müşayiət edən taksi sürücüsü Noqzar Qoşalidze deyir ki, Batumidə taksi xidməti göstərən bir neçə şirkət var. Onların içərisində ən böyüyü isə “Taxi+” şirkətidir. Şirkətdə həm normal minik üçün nəzərdə tutulmuş taksilər, həm də oturacaq sayı çox olan mikroavtobus taksilər fəaliyyət göstərir. Taksi xidməti göstərən avtomobillərin rəngi eyni olmasa da, bu taksilərin hər birinin üzərində aid olduğu şirkətin emblemi var. Müsahibimiz turizm mövsümündə Batumidə bütün sahələrin dirçəldiyini bildirir. İndi isə vəziyyət durğundur.



Bu durğunluğu şəhərdəki müxtəlif mağazaların da fəaliyyətində görmək mümkündür. Hər kəs turistləri gözləyir. Köhnə Batumidə sıra ilə düzülmüş suvenir mağazaları isə, həqiqətən, göz oxşayır. Suvenirlərin böyük əksəriyyəti özündə gürcü məişətini, dəyərlərini əks etdirir.

Şəhərdəki geyim mağazasında tanış olduğumuz Eduard Kiviya isə Azərbaycandan gəldiyimizi o dəqiqə hiss edir. Naxçıvandan olduğumuzu deyəndə isə, sözün həqiqi mənasında, sevincini gizlətmir. Bildirir ki, keçən il qardaşının oğlu astma xəstəliyindən müalicə olunmaq üçün dövlət xətti ilə Naxçıvana göndərilib. Deyir ki, onları Naxçıvanda yaxşı qarşılayıblar, pulsuz müalicə olunublar, böyük qonaqpərvərlik nümunəsi göstəriblər. Eduard özü də astma xəstəsi olduğundan bu il Naxçıvana gəlməyi düşünür. Naxçıvana artıq avtobus reysinin açıldığını deyəndə çox sevinir. Hətta bu səfərə ailəsi ilə birlikdə çıxacağını bildirir. Biz isə öz növbəmizdə onları Naxçıvanda qarşılamağa hazır olduğumuzu deyirik.

Şəhərdə görüşüb söhbət etdiyimiz insanların çoxu işsizlikdən şikayətlənsələr də, havalar isinən kimi işlərin qaydaya düşəcəyini bildirirlər. Buna görə də yerli sakinlər, eləcə də şəhər rəhbərliyi daha çox iş yerinin açılması üçün xarici investisiyaların yatırılmasında maraqlı görünür. Bizim yerli sahibkarlarımız da bu haqda düşünsələr yaxşı olar. Çünki Qafqaz regionunda mühüm əhəmiyyətə malik bu şəhərdə nəyə görə yerli sahibkarlarımızın izi olmasın. Qarşılıqlı əlaqələrin genişləndirilməsi bizim mədəniyyətimizin, dəyərlərimizin təbliğinə geniş imkanlar açacaq. Acarıstan sakinləri Naxçıvan haqqında daha çox öyrənəcək və öyrəndikcə də muxtar respublikamıza gəlmək marağında olacaqlar. Digər tərəfdən isə yuxarıda da qeyd etdiyimiz kimi, son illərdə Batumi və Naxçıvan arasında bir sıra sahələrin qarşılıqlı inkişaf etdirilməsi üçün rəsmi səviyyədə görüşlər olub. Elə bu görüşlərin də əsl məqsədi əlaqələrin qarşılıqlı surətdə inkişaf etdirilməsidir.

“Mirvari şəhər”lə bağlı təəssüratlar çoxdur. Ancaq vaxt azlığından bir çox ünvanlarda ola bilmədiyimizdən, onlar haqqında qiyabi danışmaq istəmədik. Əslində, indi buna o qədər təəssüflənmirik də. Çünki bundan sonra Batumi ilə məsafələr daha da yaxınlaşıb. Bu turizm şəhəri haqqında nə qədər öyrənməyə, onu görməyə can atırıqsa, unutmayaq ki, Naxçıvanın da başqalarına öyrədəcəyi, deyəcəyi çox sözü var. Yolboyu bizimlə həmsöhbət olanlar da Naxçıvan-Batumi avtobus marşrutunun fəaliyyətə başlamasını böyük sevinclə qarşıladıqlarını, bu əlaqələrin muxtar respublikamızın tanıdılmasında böyük rol oynayacağını dedilər.

*Batumiyə getmədən əvvəl bu qədər xoş təəssüratlara sahib olacağımızı düşünməmişdik. Vaxtımızın az olmasına baxmayaraq, Batumidə Naxçıvanı tanıyanların da az olmadığını gördük. Batumidən gəlib Naxçıvanda müalicə olunan uşaqlar Acarıstan kütləvi informasiya vasitələrində geniş işıqlandırıldığından orda naxçıvanlıları xeyirxah insanlar kimi tanıyırlar. Naxçıvanın bu imici, qədim tarixi, müasir turizm infrastrukturu qısa müddətdə Batumidən bura gələnlərin sayının artacağına əminlik yaradır.*

**Səbuhi HƏSƏNOV**
**Əli XUDİYEV**
***Naxçıvan-Batumi-Naxçıvan***

*Jurnalist araşdırması*

# Milli-mənəvi dəyərlərimizi qorumaq, yaşatmaq hər birimizin borcudur

## Və ya sağlamlığa təhlükə, dinimizə, milli dəyərlərimizə zidd olan tatuaj kimə və nəyə lazımdır?

***Qloballaşan dünyada zaman durmadan dəyişir, obyektiv informasiyaların yayılması, cəmiyyətdə sağlam düşüncənin formalaşması ilə bərabər zərərli, dağıdıcı ideologiyaların təbliğatı üçün də zəmin yaranır. Belə bir şəraitdə bu gün dünyada mövcud olan müxtəlif missionerlik hərəkatları gəncləri milli-mənəvi dəyərlərdən uzaqlaşdırmaq üçün bütün şeytani vasitələrə əl atırlar. Silah və ordudan da təhlükəli olan bu addımlar zaman keçdikcə ölkələri xaosa sürükləyir və ya müstəmləkəyə çevrilməsinə şərait yaradır.***

Vətən torpaqlarının sərhədlərini düşmən təcavüzündən qorumaq nə qədər vacibdirsə, mənəviyyatımızın sərhədlərini də yad və zərərli ideologiyalardan qorumaq bir o qədər zəruridir. Deməli, güclü ordu, siyasi iradə və iqtisadi inkişafla yanaşı, Azərbaycan dövlətçiliyinin, onun milli təhlükəsizliyinin dayaqlarından biri də sağlam milli mənəviyyat amilidir. Milli mənəviyyata, milli dəyərlərə malik olan şəxs ölkəsinin fəal vətəndaşı olur, milli dövlətçilik məsuliyyətini daşıyır, dini inancından, ictimai-siyasi mövqeyindən, həyata baxış və maraqlarından asılı olmayaraq, dövlətinə və xalqına hər zaman sadiqlik nümayiş etdirir, dilimizə, mədəniyyətimizə, adət-ənənələrimizə, ailə və məişət dəyərlərimizə, milli əxlaqımıza, ölkəmizin müstəqillik və inkişaf siyasətinə bağlı olur, milli-sosial həmrəyliyin güclənməsi prosesinə zərər vuran və belə bir təhlükə potensialını daşıyan hər cür hərəkətlərə qarşı mübarizə aparır. Bir sıra ekspertlərin də qeyd etdiyi kimi, sağlam milli mənəviyyata malik olmaq dövlətin təkcə siyasi hakimiyyət və ya milli ordu səviyyəsində deyil, həm də ümumxalq səviyyəsində, onun ən dərin qatlarından başlamış siyasi elitanın zirvəsinə qədər bütün səviyyələrdə qorunması deməkdir. Buna görə də cəmiyyətin xaricdən ölkəmizə ixrac olunan milli, dini, irqi, məzhəbçilik, təfriqəçilik kimi ekstremist ideoloji təxribatlara qarşı immuniteti daim möhkəmləndirilməlidir.

Şükürlər olsun ki, bu gün ölkəmizdə, o cümlədən muxtar respublikamızda siyasi, ideoloji, dini atmosfer o qədər aydın və şəffafdır ki, burada milli-mənəvi dəyərlərimizə zidd amillər, yabançı təlimatlarla hərəkətə gətirilən təmayüllər dərhal nəzərə çarpır. Biz sağlam milli mənəviyyatımızın məhək daşını sarsıtmaq üçün moda adı altında "yenilik təşəbbüsləri"ni də, qarşıdurma yaratmaq məqsədilə dini mühafizəkarlığı dirçəltmək cəhdlərini də, bəzi hallarda isə "demokratiya" ixracatçılığının gizli niyyətlərini də açıq-aşkar ayırd edə bilirik.

Biz onu da görürük ki, milli-mənəvi dəyərlərimizi hədəf seçən qara qüvvələr çox zaman məqsədlərinə çata bilmir, ölkəsinə, xalqına, dövlətinə, milli dəyərlərinə bağlı olan gənclərimizin ciddi etirazları ilə qarşılaşır, ictimai qınağın hədəfinə çevrilirlər. Onların ümid bəslədikləri isə milli-mənəvi dəyərlərimizə sədaqətli olmayan, öz xalqına xor baxan azsaylı şəxslər, yəni cəmiyyətimizin "çürük nöqtə"ləridir. Çünki bunlara aramsız təbliğatla mexaniki hərəkətləri, qeyri-iradi davranışları təlqin etmək o qədər də çətin deyil. Ona görə xarici maraqlı qüvvələr şeytan olduqları halda, mələk donuna girərək müxtəlif adlar altında tam formalaşmamış zehinləri "silib təmizləməyə" və lazım bildikləri ideologiyaları həmin "boşluğa" doldurmağa can atırlar. Məhz bu yolla mənəviyyatın deformasiyası baş verir.

Bəzi xarici kütləvi informasiya vasitələrinin regionda apardığı təbliğatın və Qərb ölkələrinin çəkdiyi bir çox filmlərin əsas məqsədi də məhz Şərqdə, o cümlədən ölkəmizdə cəmiyyətin dayağı hesab olunan dəyərləri məhv etmək, şöhrətpərəstliyi, var-dövlət hərisliyini aşılamaq, milli-mənəvi, dini dəyərləri kökündən sarsıtmaqdır. Bu baxımdan tatuajın, yəni döymənin təbliği maraq doğurur.

Bəri başdan deyək ki, döymə bizim milli-mənəvi, dini dəyərlərimizlə ziddiyyət təşkil edir, hətta cəmiyyətimiz tərəfindən kəskin şəkildə rədd edilir. Qədim yunanların və romalıların kölələrə, günahkarlara vurduqları döyməni bu gün biz nəyə görə üzərimizdə daşımalıyıq və ya buna nail olmaq üçün milli-dini dəyərlərimizə qarşı çıxmalı, sağlamlığımızı təhlükə qarşısında qoyaraq əzab-əziyyətə qatlaşmalıyıq? Hansı məntiqlə biz bu addımı atmalıyıq? Bəyəm biz kölə və ya günahkarıqmı? Xeyr, qətiyyən elə deyil. Təəssüf ki, bu gün döymə çox zaman guya gözəllik, sədaqət rəmzi kimi, ancaq daha çox dəbə uymağa çalışanlar tərəfindən vurulur. Döymənin kökünə baxsaq görərik ki, o, nişandır. Məsələn, əvvəllər həbsxanada olanlar, dəniz quldurları bu işarələrlə bir-birini tanıyıb, informasiya daşıyıcısı kimi döymənin növündən kimin kim olduğunu öyrəniblər. Yəni döymə həm də "çirkli dünya"nın "çirkab" insanlarına aid olan ənənədir ki, bu, bizim gözəl xalqımızın nümayəndələrinə yaraşmır.

Bəzi insanlar həyatının bir mərhələsində, hər hansı bir səbəblərdən dərilərinə boyalardan döymə çəkirlər. Bəziləri şəkil vurdurur, digərləri qaş və dodaq çəkdirir. Lakin hər bir halda illər sonra bu insanların 90 faizi bunu ya silmək, ya dəyişmək fikrinə düşürlər. Əsas problem də onda başlayır. Bu zaman dərini yandırmaq, döymə yerinə açıq rənglə yeni tatuaj vurmaq, plastik əməliyyat edib dərini kəsmək zərurəti yaranır. Bütün hallarda eyni olan mənfi cəhətlər var – dəri çox gec sağalır. Proses ağrılıdır, dəridə xora və çapıqlar əmələ gəlir və ən başlıcası, nəticəyə heç bir qarantiya yoxdur!

Adını çəkmək istəmədiyimiz bir şəxs 7-8 il əvvəl nişan barmağına nişanlısının adının baş hərfini döydürüb. Lakin tale elə gətirib ki, nişanlısından ayrılıb və bir müddət sonra başqa bir qızla ailə qurub. Xanımı ondan əlindəki hərfi sildirməyi xahiş edib. Lakin bu, ona baha başa gəlib. Yandırma yolu ilə döyməni sildirdikdən sonra yarası sağalmayıb. 2 il müxtəlif həkimlərin müalicəsini alsa da, xeyri olmayıb. Son nəticədə, barmağı kökündən amputasiya olunmalı olub: "Təxminən bir ilə yaxındı barmağımı kəsdirmişəm, qorxurdum ki, bununla da qurtarmaz, qolumu da kəsdirməli olaram. Buna görə də döyməni heç kimə məsləhət görmürəm".

Göründüyü kimi, döymə sağlamlığımıza birbaşa təhlükədir. Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzinin həkimi Adil İbrahimovun döymə barədə dedikləri isə insanı dəhşətə gətirir. Onun sözlərinə görə, bu gün müalicəsi olmayan QİÇS, həmçinin çətin sağalan hepatit B, hepatit C kimi xəstəliklər döymə vasitəsilə insana yoluxa bilər. Çünki bu xəstəliklərə səbəb olan viruslar qana təmas edən alətlərlə ötürülür. Bəzən döymələr eyni alətlərlə qeyri-gigiyenik şəraitdə həyata keçirilir. Bu da infeksion xəstəliklərə yoluxmaya səbəb olur. Əslində, bu şəxslər sağlamlıqlarını bizim milli-mənəvi dəyərlərimizlə ziddiyyət təşkil edən mənasız bir şey uğrunda qurban verirlər.

Araşdırmalar nəticəsində məlum olub ki, bədənə şəkillər döydürmüş şəxslər başqalarından daha çox hepatit C xəstəliyinə yoluxurlar. Bundan əlavə, cüzam və vərəm kimi digər yoluxucu xəstəliklər döymə vasitəsilə də ötürülür.

Adil İbrahimovun sözlərinə görə, döymədə istifadə edilən rənglər də təhlükə yarada bilər. Həmin rəng maddələri yağdan, bitki şirəsindən, heyvan sürməsindən və ya dəmir, kobalt kimi yeraltı maddələrin karbonundan alınır. Amma məlumdur ki, çox zaman mürəkkəbdən, yaxud avtomobilin yanmış yağından istifadə edilir. Bu isə sağlamlığa çox böyük təhlükə yaradır. Çünki bir sıra rənglərdə xərçəng xəstəliyi yaradan, bəzən də şiddətli allergiyaya səbəb ola bilən maddələr vardır.

Ümumiyyətlə, döymə 22-dən çox xəstəliyin yaranmasına səbəb olur. Qara mürəkkəblə edilən tatu xüsusilə təhlükəlidir. Belə ki, mürəkkəbin tərkibinə ənənəvi xınadan başqa, parafenilenodiamin adlı maddə də daxil edilir. Bəzi kosmetik vasitələrin hazırlanmasında bu kimyəvi maddənin az miqdarda istifadəsinə icazə verilir. İnsan orqanizminə bu cür müdaxilənin nəticəsi ekzema (dəri xəstəliyi), dermatit (dəri iltihabı), allergik reaksiya ola bilər. Süni rənglərin əksinə olaraq təbii rənglərin sabit kimyəvi quruluşu olmadığından dərhal parçalanaraq zərərli maddələr qana keçir. Bu baxımdan demək olar ki, təbii rənglərlə döymə vurdurmaq, hətta süni rənglərdən daha təhlükəlidir. Bu növ döymədə allergiya və ekzemaya yoluxma daha tez baş verə bilər.

Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzinin həkimi, dermatoloq Xədicə Qaziyevanın sözlərinə görə isə dəriyə ən böyük zərbəni elə tatuaj vurur. Çünki iynələrlə işlənilən tatuaj birbaşa dərinin altına müdaxilə edir. Bu zaman qan zəhərlənir, toksiki dermatoz əmələ gəlir. Digər tərəfdən, bəzi insanlarda çapıqlanmaya meyillilik var, buna kelloid xəstəliyi deyilir. Bu cür insanlara tatuaj vurulanda dərinin tamlığı pozulur, dəridə çapıqlar əmələ gəlir ki, bunlar da kelloid çapıqlar adlanır. Dərinin altına vurulan maddələrin, piqmentlərin nə qədər təbii olması da şübhə altındadır. Çünki tatuaj insanı əlindən, ayağından edə bilər. Döymənin ziyanı sayılmayacaq qədər çoxdur, konkret dermatoloji baxımdan dəriyə kəskin ziyan vurur, onun tamlığını pozur və vurulan maddənin keyfiyyətindən asılı olaraq dəridə çuxurlar yaradır.

Döymə insanın yaradıldığı forma və surəti dəyişdirməyə xidmət etdiyi üçün İslam dini tərəfindən də qadağan edilir.

Bu məsələyə toxunan Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə İdarəsinin rəisi Vüqar Babayev səhih hədislərdən misallar gətirərək deyir: "Həzrəti Əbu Hureyrədən gələn rəvayətə görə Məhəmməd Peyğəmbər belə buyurub ki, parik (parçaya tikilmiş süni taxma saç) taxana və taxdırana, bədəninə döymə vurana və vurdurana Allah lənət etsin. İbni Abbas nəql edir ki, parik taxan, taxdıran, döymə vuran və vurduran lənətlənib. Əbu Cuheyfə nəql edir: "*Rəsulullah ələyhissalam ...döymə vuranı və vurduranı... lənətlədi"*. Hədislərdən də göründüyü kimi, Rəsulullah ələyhissalam döymə vurmağı və vurdurmağı qadağan edib. Yəni döymə etdirmək Onun lənətlədiyi əməl olduğuna görə dinimizdə haramdır. Döymə vurdurmaq bir mənada Allahın yaratdığı fitrəti bəyənməyib dəyişdirməkdir. Fitrəti dəyişdirməyə yönəlmiş müdaxilələr dinimizdə haramdır. Çünki gözəlləşmək məqsədilə dişləri incəltmək, saç əkdirmək, bədənə döymə vurdurmaq və sair kimi əməllər Allahın ən gözəl şəkildə yaratdığı insan təbiətinə, onun fitrətinə sonradan edilən müdaxilələrdir. Şübhəsiz ki, fitrəti dəyişdirmək şeytanın xoşuna gələn əməldir. Çünki Quranda şeytanın insanlara bu istiqamətdə vəsvəsə verəcəyi bildirilib".

Hər şeydən şirin olan can sağlamlığına ziyan vuran, Allah və Onun Peyğəmbərinin qadağan etdiyi kimə və nəyə lazımdır? Təbii ki, bunun sosial-psixoloji səbəbləri olduğu şübhəsizdir. "Naxçıvan" Universitetinin müəllimi, psixoloq Şahnaz Məmmədova qeyd edir ki, döymə elətdirənlərdə davamlı, təkrarlayıcı kompleks davranışlar göstərənlər olub. Yəni döyməni elətdirənlərin əksəriyyətinin psixoloji problemləri var.

Bəli, fərqli görünüşə sahib olmağa çalışan gənclərin bəzən psixoloji vəziyyətləri düşündüyümüz qədər də ürəkaçan olmur. Onlar özlərini başqalarına isbatlamağa çalışarkən xarici görünüşlərinə "əl gəzdirməyə" və bu şəkildə qəbul etdirməyə çalışırlar. Döymələrin şəklinə baxanda o gənclərin düşüncələrini oxumaq çətin olmur. Bu fərqlilik onlara anormal özgüvən verir və bəzi hallarda cəmiyyətdən təcrid olunmağa vadar edir. Ən dəhşətlisi isə içinə qapanıqlıq və intihara meyillilik yaradır.

Buna görə də valideynlər daha diqqətli olmalı, övladlarında belə halları müşahidə etdikləri zaman bunu gizlətməməli, onları müayinə etdirməlidirlər. Həmin gənclər anlamalıdırlar ki, insan döymə vurdurmaqla fərqlənə bilməz. İnsan öz biliyi, zəhməti, xalqına, milli adət-ənənələrinə, dövlətinə, dövlətçiliyinə bağlılığı ilə yüksələ, seçilə bilər.

*Yuxarıda qeyd edilən məsələlər nəzərə alınaraq muxtar respublikamızda tatuajla məşğul olan ayrı-ayrı şəxslərə, obyektlərə qarşı ciddi tədbirlər həyata keçirilir. Bu addım bizim bu günümüz, gələcəyimiz üçün çox vacibdir. Çünki gələcəyimiz olan yeniyetmələrin, gənclərin yad təsirlərdən qorunması milli-mənəvi dəyərlərimizin yaşadılması baxımından mühüm əhəmiyyətə malikdir. Unutmayaq: milli varlığımız, milli mədəniyyətimiz səmaya yüksəlmiş nəhəng, yaraşıqlı binaya bənzəyir. Bu bina bizə babalarımızdan əmanət qalıb. Heç birimizin isə əmanətə xəyanət etməyə haqqımız yoxdur.*

✍ **Rauf ƏLİYEV**

## Xocalı soyqırımı ilə bağlı film nümayiş etdirilib



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan şəhərində yerləşən "Gənclik" Mərkəzində "Azərbaycanlıların soyqırımı" adlı sənədli film nümayiş etdirilib. Filmin nümayiş olunmasında məqsəd Xocalı soyqırımının yad edilməsi, gənclərə vətənpərvərlik hisslərinin aşılanması idi. Filmə, ümumilikdə, 410 nəfər olmaqla, Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri və Heydər Əliyev adına Hərbi Liseyin kursantları baxıblar.

## Kross turniri



Dünən Naxçıvan-Duzdağ magistral yolunda Xocalı soyqırımına həsr olunmuş Heydər Əliyev adına Hərbi Liseyin kursantları arasında kross qaçışı üzrə Naxçıvan şəhər turniri keçirilib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin tədbirlər planına uyğun olaraq Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyası, Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi, Heydər Əliyev adına Hərbi Liseyin birgə təşkil etdiyi turnirdə 100-ə yaxın kursant mübarizə aparıb. Turnirin açılışından öncə Xocalı soyqırımında həyatını itirmiş həmvətənlərimiz bir dəqiqəlik sükutla yad edilib. Sonra çıxış edən federasiyanın sədr müavini İntiqam Əliyev, nazirliyin Kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimov 24 il öncə baş vermiş faciə haqqında iştirakçıları məlumatlandırıblar. Qeyd edilib ki, turniri keçirməkdə məqsəd həm də kursantlardan ibarət yığmanı formalaşdırmaq və yüngül atletikanı muxtar respublikada gənclər arasında təbliğ etməkdir.

3 kilometr məsafədə keçirilən kross yarışının nəticələrinə əsasən, Cəfər Quliyev bütün rəqiblərini arxada qoyaraq finiş xəttinə birinci çatıb. İlkin Əsgərov və Nurəddin Broyev isə ikinci və üçüncü olublar. Reqlamentə görə, ilk 10 pillədə qərarlaşan Ziyarət Vəliyev, Eldəniz Nağıyev, Qurban Abdullayev, Eşqin Abdullayev, Mustafa Musayev, İlkin Kərimov və Nurlan Məhərrəmov da qalib adını qazanıblar.

Sonda qaliblərə təşkilatçıların diplom və fəxri fərmanları, federasiyanın hədiyyələri təqdim edilib.

✍ **Ceyhun MƏMMƏDOV**

**Bildiriş**

"NUR-EL" Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN: 0200208301) fəaliyyətini dayandırdığından ləğv olunur.


**ŞƏRQ qapısı**

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 168